## Səbail rayonunda dönərxananın fəaliyyətinin məhdudlaşdırılmasına dair məlumat

**(1 noyabr 2024)**

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən aparılan monitorinqlər zamanı Bakı şəhəri, Səbail rayonu, 20-ci sahədə yerləşən, fiziki şəxs Əliyev Seyran Allahverdi oğluna məxsus “Dönər Evi” iaşə obyektinin qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi məlum olub. Həmçinin mütəmadi olaraq təmizlik işlərinin aparılmadığı, yuma sahəsinin antisanitar vəziyyətdə olduğu, döşəmənin tamlığının pozulduğu, soyuducuda rəflərin korroziyaya uğradığı, doğrama lövhəsinin gigiyenik materialla üzlənmədiyi, qida məhsullarının, avadanlıqların və işçi heyətin əllərinin yuyulmasının birgözlü yuma çanağında həyata keçirildiyi, təmizlik ləvazimatlarının saxlanması üçün dolabın təşkil edilmədiyi və digər nöqsanlar müəyyən olunub. Müayinələrin aparılması məqsədilə götürülmüş mal əti dönər nümunəsində isə toyuq DNT-si aşkarlanıb.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq dönərxananın fəaliyyəti mədudlaşdırılıb.